

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 186 (23.097)

*2 oktyabr 2018-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Rusiya Federasiyasının iqtisadi inkişaf naziri ilə görüşüb



Sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüşüb.

Ali Məclisin Sədri qonağı ümummilli liderimiz Heydər Əliyevin vətəni Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Muxtar respublika haqqında ətraflı məlumat verən Ali Məclisin Sədri Naxçıvan şəhərində rusdilli məktəbin fəaliyyət göstərdiyini, Naxçıvan Dövlət Universitetində rus dili ixtisasının, ümumtəhsil məktəblərində isə rus dili fənninin tədris olunduğunu qeyd etmişdir. Ali Məclisin Sədri təhsil və turizm sahəsindəki əlaqələrdən bəhs etmiş, əməkdaşlıq imkanlarını diqqətə çatdırmışdır.

Naxçıvanda olmaqdan məmnunluğunu bildirən Maksim Oreşkin göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərə diqqəti çəkən qonaq Naxçıvan Muxtar Respublikasının inkişafını əməkdaşlıqda vacib amil kimi dəyərləndirmişdir.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Babək qəsəbəsində yeni yaşayış binası istifadəyə verilmişdir



Ümummilli lider Heydər Əliyevin quruculuq strategiyasının mühüm nəticələrindən biri də Babək rayonunun yaradılmasıdır. Bu gün dahi şəxsiyyətin siyasi xəttinə sədaqət Babək rayonunu müasir yaşayış məntəqəsinə çevirmişdir. Rayonda sosial-iqtisadi inkişaf təmin olunmuş, tikinti-quruculuq işlərinin həcmi genişlənmiş, məskunlaşma artmışdır.

Oktyabrın 1-də Babək qəsəbəsində gənc ailələr üçün tikilmiş yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada həyata keçirilən sosial layihələrin davamı olaraq Babək rayonunda yeni yaşayış binasının istifadəyə verildiyini bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: Bu gün ölkəmizdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bütün sahələrdə inkişaf və tərəqqi var. Bu da özünü həm insanların yaşayış şəraitinin və rifahının yaxşılaşmasında, həm də onların mənzil sahibi olmalarında göstərir.





Ali Məclisin Sədri demişdir: Mənzil insan həyatında vacib amildir. Gənc yaşda müasir mənzil sahibi olmaq və rahat həyatı təmin etmək isə daha mühüm məsələdir. Muxtar respublikada bu sahədə həyata keçirilən layihələr gənc ailələrə göstərilən dövlət qayğısının ifadəsidir. Dövlət tərəfindən maliyyələşdirilən bu layihələrə ilk dəfə Naxçıvan şəhərində başlanılmış, Gənclər şəhərciyi tikilib istifadəyə verilmişdir. Muxtar respublikanın rayon mərkəzlərində – Babək, Kəngərli və Sədərək rayonlarında da gənclər üçün yeni yaşayış binalarının tikintisinə başlanılmışdır. Dövlət vəsaiti ilə tikilən binalarda mənzillərə çəkilən xərclərə heç bir əlavələr edilmədən münasib qiymətə gənc ailələrə təklif edilir. Əldə olunan vəsait isə digər yaşayış binalarının tikintisinə sərf olunur. Bu da gənclərimizin əlavə vaxt və vəsait itkisinə yol vermədən qısa müddətdə mənzil sahibi olmalarına şərait yaradır.



Ali Məclisin Sədri demişdir: Gənclərin müasir və rahat mənzillərlə təmin olunması imkan verir ki, onlar öz potensiallarını işlərinə və ailələrinin möhkəmliyinə sərf etsinlər. Çünki cəmiyyətdə nikahların qorunması və möhkəmləndirilməsində mənzil amili xüsusi yer tutur. Həyata keçirilən bu layihələr ölkəmizin iqtisadi gücünün göstəricisidir. İqtisadi inkişaf, sabitlik və dövlət qayğısı olmadan bu tədbirləri həyata keçirmək mümkün olmaz. Bütün bunlar isə ölkəmizdə var. Dövlətimiz də mövcud imkanlardan istifadə edərək sosial sahənin inkişafını, xüsusilə də əhali üçün rahat yaşayış şəraitinin yaradılmasını diqqətdə saxlayır, gənc ailələr müasir mənzillərlə təmin olunurlar.

Ali Məclisin Sədri binanın gələcək sakinlərinə rahat və firavan həyat arzulamış, bu işlərdə əməyi olanlara təşəkkür etmişdir.

Qəsəbə sakini Vəli Əliyev çıxış edərək demişdir ki, ötən dövrdə burada böyük quruculuq işləri aparılmış, 2 tam orta məktəb binası, uşaq bağçası, musiqi məktəbi, şahmat məktəbi, eləcə də Babək qəsəbəsində yerləşən bütün dövlət qurumları üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Həmçinin yeni emal və istehsal müəssisələri fəaliyyətə başlamış, iş yerləri açılmış, yollar abadlaşdırılmış, qəsəbə fasiləsiz elektrik enerjisi, təbii qaz, keyfiyyətli rabitə və sürətli internetlə təmin edilmişdir. Hazırda yeni içməli su və kanalizasiya xətləri çəkilir. Bu gün Babək qəsəbəsi müasir şəhər görkəminə qovuşub. Yaradılan şəraitin nəticəsidir ki, məskunlaşma ilbəil artır. Gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi yeni yaşayış binasının istifadəyə verilməsi də sakinlər tərəfindən minnətdarlıqla qarşılanır.

Ali Məclisin Sədri binanın açılışını bildirən lenti kəsmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan bina 28 mənzillidir. Mənzillərdən 7-si üçotaqlı, 21-i isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 97, ikiotaqlı mənzillərin ümumi sahəsi isə 69 kvadratmetrdir. Bütün mənzillər təmir olunaraq müasir kommunal məişət şəraiti yaradılmış, internet çəkilmiş, binada lift quraşdırılmışdır.

Binanın zirzəmisində xidmət sahələri yaradılmış, bərbərxana, qadın gözəllik salonu, dərzi, ərzaq və sənaye malları mağazaları istifadəyə verilmişdir. Həyətdə də abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

*Ardı 2-ci səhifədə*

# Məscid və mərasim evi istifadəyə verilmiş, dini icmalara xidməti avtomobillər təqdim edilmişdir





Bu gün yaşayış məntəqələrində yeni məscid binalarının və mərasim evlərinin tikilməsi muxtar respublikada həyata keçirilən dövlət-din siyasətinin mühüm istiqamətlərindəndir. Dini və mənəvi dəyərlərimizin yaşadılmasına xidmət edən bu tədbir Babək rayonunda da uğurla həyata keçirilir.



Oktyabrın 1-də Babək qəsəbəsində məscid və mərasim evi istifadəyə verilmiş, Naxçıvan şəhərinin, Şərur, Babək və Ordubad rayonlarının dini icmalarına xidməti avtomobillər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Babək qəsəbəsində məscid və mərasim evi istifadəyə verilir. Eyni zamanda Naxçıvan şəhərinin, Şərur, Babək və Ordubad rayonlarının dini icmalarının rəhbərlərinə xidməti avtomobillər təqdim edilir. Bu, ölkəmizdə həyata keçirilən dövlət-din siyasətinin nəticəsidir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən din dövlətdən ayrıdır. Lakin buna baxmayaraq dövlətimiz dini-mənəvi dəyərlərimizin qorunub yaşadılmasına qayğı göstərir, dindarlar üçün hərtərəfli şərait yaradır. Dindarlarımız isə ölkəmizdəki sabitliyin qorunmasına, İslam



dininin olduğu kimi təbliğinə xüsusi diqqət yetirirlər. Birgə fəaliyyətin nəticəsidir ki, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında dövlət-din münasibətləri qarşılıqlı anlaşma və hörmət əsasında qurulub.

Ali Məclisin Sədri bu sahədəki fəaliyyətə görə muxtar respublika dindarlarına təşəkkür etmişdir. Qeyd olunmuşdur ki, dövlət-din münasibətlərinin düzgün tənzimlənməsi ölkəmizin inkişafına, sabitliyin möhkəmlənməsinə xidmət edir. Din mənəviyyatdır. Saf dini dəyərlər isə sağlam cəmiyyət və sağlam insanlar deməkdir. İnsanların mənəviyyatı nə qədər yüksəkdirsə, deməli o, ölkəsi və xalqı üçün dəyərli vətəndaşdır. İslam insanları düz yola dəvət edən mütərəqqi dindir. Ona görə də İslam dini olduğu kimi insanlarımıza çatdırılmalı, dini-mənəvi dəyərlərimiz qorunmalıdır.

Ali Məclisin Sədri demişdir: Bu gün dövlətimiz İslam dəyərlərinin olduğu kimi təbliğini diqqətdə saxlayır, dinə əsassız müdaxilələrin qarşısı alınır. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi bu sahə üzrə fəaliyyət göstərən dövlət qurumu tərəfindən həyata keçirilir. Muxtar respublikamızda da bu sahə üzrə dövlət təşkilatı fəaliyyət göstərir. Bu gün Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Agentliyi ilə dini icmalar arasındakı əlaqələr dövlət-din münasibətlərinin tənzimlənməsinə və möhkəmlənməsinə xidmət edir. Birgə fəaliyyət isə həm ölkəmizə, həm də insanlarımıza fayda verir.

Babək qəsəbə sakini Hidayət Hüseynov çıxış edərək demişdir: Bu gün muxtar respublikada dini-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər böyük məmnunluq doğurur. Ziyarətgahlarımız bərpa olunur, yeni məscidlər tikilir, ibadət üçün hərtərəfli şərait yaradılır. Qəsəbəmizdəki məscid də köhnə binada yerləşdiyindən dindarlar üçün lazımi şərait yox idi. Mərasim zalının olmaması isə əlavə çətinliklər yaradırdı. Lakin dini-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Babək qəsəbə məscidi əsaslı şəkildə yenidən qurulmuş, yeni mərasim evi tikilmişdir. Bu isə həm dindarlar üçün lazımi ibadət şəraitinin yaradılması, həm də sakinlərin rahatlığının təmin olunması deməkdir. Hidayət Hüseynov yaradılan şəraitə görə rayon dindarları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri Naxçıvan şəhərinin, Şərur, Babək və Ordubad rayonlarının dini icmalarının rəhbərlərinə “NAZ Lifan 330” markalı xidməti avtomobillərin açarlarını təqdim etmişdir.

Şərur rayon dini icmasının rəhbəri Nəsib Novruzov minnətdarlıq edərək demişdir ki, muxtar respublikada dini icmalar qayğı ilə əhatə olunub. Yaradılan şərait, göstərilən qayğı dini dəyərlərimizi olduğu kimi təbliğ etməyə imkan verir.

Sonra məscid binasına və mərasim evinə baxış olmuşdur.

Bildirilmişdir ki, məsciddə kişi və qadınların ayrılıqda ibadəti üçün 2 zal yaradılmış, imam və imam naib otaqları istifadəyə verilmiş, fərdi istilik sistemi quraşdırılmış, yeni minarə tikilmişdir. Yeni tikilən mərasim evi də kişi və qadın zallarından ibarətdir. Binada mətbəx yaradılmış, zəruri məişət əşyaları, fərdi istilik və soyutma sistemləri ilə təmin edilmişdir.

Ali Məclisin Sədri İslam dininin olduğu kimi təbliği və dini maarifçilik işinə diqqətin artırılması barədə müvafiq tapşırıqlar vermişdir.

Məscidin və mərasim evinin həyətində abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul



Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin muxtar respublikaya yeni təyin olunmuş Baş konsulu Məhmət Emin Kirazı qəbul edib.

Ali Məclisin Sədri Məhmət Emin Kirazı muxtar respublikada Baş konsul kimi fəaliyyətə başlaması münasibətilə təbrik edib. Naxçıvan Muxtar Respublikası ilə dost və qardaş Türkiyə arasında iqtisadi-ticarət, hərbi, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri münasibətlərin daha da möhkəmləndirilməsində Baş konsula uğurlar arzulamışdır.

Məhmət Emin Kiraz səmimi qəbula görə minnətdarlıq etmiş, qardaş ölkə Azərbaycanın Türkiyə ilə yeganə sərhədi olan Naxçıvan Muxtar Respublikasında diplomatik fəaliyyət göstərməkdən şərəf duyduğunu və əlaqələrin inkişafında səylərini əsirgəməyəcəyini bildirmişdir.

Söhbət zamanı mövcud əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin sentyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 5 sentyabr qərarları ilə “Gömrük yığımlarının məbləğləri”ndə və “Elektron xidmət növlərinin Siyahısı”nda dəyişikliklər edilmiş, “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 13 sentyabr tarixli qərarları ilə “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 yanvar tarixli 5 nömrəli qərarında dəyişikliklər edilmiş, Naxçıvan Muxtar Respublikasında qiymətli metallar və qiymətli daşlarla aparılan əməliyyatlar üzrə dövlət tənzimləmə mexanizminin təkmilləşdirilməsi ilə əlaqədar bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 19 sentyabr tarixli qərarı ilə “Naxçıvan Muxtar Respublikasının cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları”nda dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

## Maksim Oreşkin: Görkəmli dövlət xadimi Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim diyarda olmağımdan çox məmnunam

*IX Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin sentyabrın 29-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*

Qonaq əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib. Burada qonağa muzeyin yaradılması barədə məlumat verilib.





Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla yaradılıb və həmin ilin may ayının 10-da fəaliyyətə başlayıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək buradakı ekspozisiya ilə tanış olub. Ulu öndərin muzeyi ziyarət edən zaman çəkilmiş tarixi fotoları burada nümayiş olunur. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılıb. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir.

Sonra qonaq Naxçıvan şəhərindəki 3 nömrəli tam orta rus məktəbində olub. Məlumat verilib ki, Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbi 1939-cu ildən fəaliyyət göstərir. 2017-ci il yanvarın 11-də məktəbin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. 600 şagird yerlik məktəbdə beşi elektron lövhəli olmaqla, 32 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, iki kompüter, müəllimlər, şahmat otaqları, kitabxana, bufet və idman zalı fəaliyyət göstərir. Məktəbdə 42 kompüter quraşdırılıb və internetə qoşulub.

Maksim Oreşkin təhsil ocağında yaradılan şəraitlə yaxından tanış olub, müəllimlərlə görüşüb.

“Şərq qapısı” qəzetinə müsahibəsində Maksim Oreşkin səfərinin məqsədi və təəssüratları barədə danışıb: “İlk dəfədir, Naxçıvan Muxtar Respublikasına səfər edirəm. Səfər tanışlıq məqsədi daşıyır. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin doğulub boya-başa çatdığı bu qədim diyarda olmağımdan çox məmnunam. Bura gözəl və təmiz şəhərdir, çox gözəl havası və təbiəti var”.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində olan çoxsaylı qiymətli eksponatlar və şəhər 3 nömrəli tam orta rus məktəbində yaradılan şəraitin onda zəngin təəssüratlar yaratdığını vurğulayan Rusiya Federasiyasının iqtisadi inkişaf naziri deyib: “Çalışacağam ki, Naxçıvan şəhərindəki 3 nömrəli tam orta rus məktəbi ilə Rusiyadakı hər hansı müvafiq bir məktəb arasında qarşılıqlı əməkdaşlıq qurulmasına öz töhfəmi verim. İstərdim ki, naxçıvanlı məktəblilər Rusiyaya, rusiyalı məktəblilər isə Naxçıvan Muxtar Respublikasına səfərlər edə bilsinlər və gələcəkdə Rusiya ilə Azərbaycandakı ali təhsil müəssisələri arasında tələbə mübadiləsi aparılmasına şərait yaradılsın”.

**Xəbərlər şöbəsi**

## Muzey ziyarətləri davam edir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı muxtar respublikada dövlət orqanları əməkdaşlarının muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır.

Sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Qarabağlar Türbə Kompleksində olublar. Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan bu qədim abidə elmi və tarixi əsaslarla bərpa edilib və bu il iyulun 5-də istifadəyə verilib. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılıb.

Kompleksin xanəgah hissəsi ilə tanışlıq zamanı qeyd olunub ki, burada xalqımızın həyat tərzini əks etdirən qədim məişət əşyaları, ərazidə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələrindən ibarət eksponatlar nümayiş etdirilir. Xalqımızın tarixini, adət-ənənələrini, məişətini özündə əks etdirən saxsı və mis qablar, daş dəstər və həvəngdəstələr, eyni zamanda toxuculuq nümunələri qədim məişət mədəniyyətimiz haqqında dolğun təəssürat yaradır. Ekspozisiyada Qarabağlar Türbə Kompleksinin bərpadan əvvəl və bərpadan sonra çəkilmiş fotoşəkilləri, o cümlədən kətan üzərində yağlı boya ilə işlənmiş “Qarabağlar türbəsi” rəsmləri, Naxçıvanın tarixini və Qarabağlar Türbə Kompleksi haqqında məlumatları özündə əks etdirən kitablar da nümayiş olunur.

Sonra muzey iştirakçıları Qarabağlar türbəsini ziyarət ediblər.

Həmin gün Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşları Heydər Əliyev Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Duz Muzeyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyasını, Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.

Mərkəzi Seçki Komissiyasının əməkdaşları “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksində, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin, “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin və “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Ədəbiyyat Muzeyində, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Dövlət Statistika komitələrinin əməkdaşları Naxçıvan Biznes Mərkəzində, Dövlət Energetika Xidmətinin kollektivi Bəhruz Kəngərli Muzeyində, “Naxçıvanqaz” İstehsalat Birliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyində, Dövlət Baytarlıq Xidmətinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Dövlət Arxiv İdarəsinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Dövlət Baş Sığorta Agentliyinin kollektivi isə Nəbatat bağında olublar.

Qeyd edək ki, sentyabrın 29-da muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeyləri ziyarət ediblər.

**✍ Nail ƏSGƏROV**

## Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yeni proqram təminatı istifadəyə verilib

*Muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sisteminin formalaşdırılması diqqət mərkəzindədir. Xüsusilə dövlət qulluğuna qəbulun təkmilləşdirilməsi və bu sahədə yeni texnologiyaların tətbiqi, şəffaflığın təmin edilməsi əsas vəzifələr sırasındadır.*







Dövlət qulluğu haqqında qanunvericiliyə edilən dəyişikliklərlə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 may tarixli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası” və 2017-ci il 9 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları”na əsasən test imtahanında, eləcə də müsahibə mərhələsində iştirak etmək üçün namizəd komissiyanın internet portalı vasitəsilə elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidir. Buna görə də, komissiyanın proqram təminatının yeniləşdirilməsi zərurəti yaranmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən icraçı şirkətlə müqavilə bağlanmış və həmin şirkət tərəfindən yeni proqram təminatı işlənib hazırlanmışdır. Növbəti müsabiqələrdə iştirak etmək üçün namizədlər “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçəcəklər. Komissiyanın elektron xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçinin “şəxsi kabinet”i olmalıdır. “Şəxsi kabinet” bir dəfə yaradılacaq və daimi istifadə ediləcəkdir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin “şəxsi kabinet”ində öz əksini tapacaqdır. Bu da vətəndaşların dövlət qulluğuna qəbul ilə əlaqədar müraciət etmək imkanlarının sadələşdirilməsinə və asanlaşdırılmasına, eləcə də rayonlarda yaşayan şəxslərin sənəd təqdim etməsi üçün mərkəzə gəlməsinin və bunun nəticəsində yaranan vaxt və maliyyə itkisinin qarşısının alınmasına, əlavə sənəd təqdim etmədən “şəxsi kabinet” vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibə mərhələlərində iştirakına imkan yaradacaqdır. Bundan başqa, test imtahanı, müsahibənin vaxtı və digər məsələlər barədə komissiya tərəfindən namizədlərə bildiriş göndərilməklə lazımi məlumatların “şəxsi kabinet” vasitəsilə çatdırılması mümkün olacaqdır.

Müsabiqələrdə iştirak etmək üçün namizədlər qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sənədlərin skan edilmiş surətlərini istənilən vaxt “şəxsi kabinet”ə yükləyə biləcəklər. Bu da namizədlərə aid məlumatların düzgünlüyünün yoxlanılmasının həyata keçirilməsini təmin edəcək, saysız-hesabsız sənədlərin toplanılması prosesi, habelə sənəd qəbulu üçün yaranan növbələr aradan qalxacaqdır. Proqram təminatı namizədin elektron şəxsi işinin yaradılmasına imkan verir ki, bu da kağız və digər dəftərxana ləvazimatlarına qənaət edilməsini, namizədlərin dövlət qulluğuna qəbulunun mümkünlüyünün daha operativ yoxlanılmasını və müsabiqələrin ən azı 1 ay tez yekunlaşdırılmasını təmin edəcəkdir.

Qanunvericilikdə vətəndaşların dövlət qulluğuna qəbulu zamanı test imtahanında iştirak etmək üçün müəyyən məbləğin ödənilməsi nəzərdə tutulmuşdur. Namizədlər elektron müraciətlərini təsdiq edərkən “şəxsi kabinet” vasitəsilə onlayn qaydada, yəni bankomat kartları ilə ödəniş edə biləcəklər. Komissiyanın internet portalının təhlükəsizliyinin tam şəkildə təmin edilməsi məqsədilə “SSL” sertifikatı alınmışdır ki, bu da portalın elektron ödəniş sistemlərinə inteqrasiya edilməsinə imkan vermiş, namizədlərin elektron xidmətlərdən istifadə edərkən və qeydiyyatdan keçərkən ödəniş kartı və fərdi məlumatlarının tamamilə qorunmasını təmin etmişdir.

Yeni proqram təminatının hazırlanması məmur-vətəndaş təmasının aradan qaldırılmasına, şəffaflığın tam təmin edilməsinə, komissiyanın fəaliyyətinin günün tələblərinə uyğun və qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilməsinə şərait yaradacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

# Xocavənd rayonunun işğalından 26 il ötür

*Xocavənd rayonu Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il oktyabr ayının 2-də işğal edilib. Erməni qəsbkarları və muzdlu döyüşçülərlə gedən qeyri-bərabər döyüşlərdə rayonun azərbaycanlı kəndləri qarış-qarış, addım-addım itirilib. 1991-ci il oktyabrın 30-da rayonun azərbaycanlılar yaşayan qədim Tuğ və Salakətin kəndləri, həmin il noyabrın 15-19-da Xocavənd, 1992-ci il yanvar ayının 9-da isə Haxullu kəndləri işğala məruz qalıb.*

Düşmən yaşayış məntəqələrimizi işğal edən zaman əliyalın əhaliyə divan tutub. 1992-ci il fevralın 17-də ermənilər Qaradağlı kəndində misligörünməmiş vəhşiliklər törədib, kənd əhalisinin böyük bir qismini xüsusi amansızlıqla qətlə yetirərək soyqırımı həyata keçiriblər. Həmin il oktyabr ayının 2-də Əmirallar, Muğanlı və Kuropatkini, 1993-cü il iyulun 23-də isə Günəşli kəndləri Ermənistan silahlı qüvvələri və onların havadarları tərəfindən işğal edilərək yandırılıb.

İşğaladək xocavəndlilər düşmənə qəhrəmanlıqla müqavimət göstəriblər. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələri kimi Xocavəndin kəndləri də dörd il ərzində ermənilərin hücumuna məruz qalıb, lakin düşmənə qarşı inadlı müqavimət göstərilib, bu torpaqların hər qarışı uğrunda qanlar tökülüb, şəhidlər verilib. Qeyri-bərabər döyüşlərdə rayonun uşaqlı-qadınlı, cavanlı-qocalı bütün sakinləri iştirak ediblər. Xocavənd rayonunun təkcə Qaradağlı kəndi ermənilərlə qeyri-bərabər mübarizədə 4 ay tam mühasirə şəraitində qalıb, 800 sakini olan kənddə 91 nəfər şəhidlik zirvəsinə yüksəlib. Bu, kənd əhalisinin hər 10 nəfərindən biri deməkdir. Xocavəndlilər öz ata-baba yurdlarının müdafiəsi uğrunda 145 şəhid veriblər, bu isə rayonun azərbaycanlı əhalisinin hər 50 nəfərindən biridir.

Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev 1994-cü il aprelin 10-da Xocavənd rayonu ərazisində cəbhə xəttinə səfəri zamanı Xocavənd taborunun döyüşçüləri ilə səmimi görüşüb, igid Vətən oğullarına öz təşəkkürünü bildirib, bir neçə cəsur döyüşçünü isə Vətənin yüksək mükafatı ilə təltif edib. Bu görüşdən ruhlanan əsgərlərimizin böyük şücaət və qəhrəmanlıqları sayəsində Xocavənd rayonunun – Dağlıq Qarabağın 14 min hektar ərazisi düşməndən azad edilib. Hazırda həmin ərazilər ordumuzun nəzarəti altındadır və rayon sakinləri orada gündəlik təsərrüfat işləri ilə məşğul olurlar.

Xocavənd rayonu Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli Qanununa əsasən Martuni və Hadrut rayonlarının bazası əsasında yaradılıb. Rayonun ərazisi 1458 kvadratkilometr, əhalisi 42 min 120 nəfər, o cümlədən azərbaycanlılar 10 min 994 nəfər olub. İnzibati ərazisində 1 şəhər, 2 qəsəbə və 81 kənd mövcud idi ki, onlardan da 10-da azərbaycanlılar yaşayıb. Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın və Xocalı rayonları ilə həmsərhəddir. İqtisadiyyatında üzümçülük, heyvandarlıq, quşçuluq və bostançılıq üstünlük təşkil edib. Amma rayon daha çox üzümü və yaşıl mərməri ilə məşhur olub.

Xocavənd rayonunun işğalı nəticəsində bu diyarın azərbaycanlılar yaşayan kəndlərində 1723 yaşayış evi yandırılaraq əmlakları talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılıb. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət



obyekti, 10 tarixi abidə viran edilib. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 kilometr avtomobil yolları, 32 körpü, 42 su anbarı və 316 kilometr su kəməri xətti dağıdılıb, talan edilərək yararsız hala salınıb. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla bərabər rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Belə ki, rayonun 1202 hektar meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilib.

Bu diyardakı füsunkar təbiəti ilə fərqlənən Ziyarət, Kirs və Ərgünəş yaylaqları Kiçik Qafqazın əsrarəngiz təbiət gözəlliklərini özündə əks etdirir. Ərazisində Bağırxan, Qırmızı Bazar kimi istirahət zonaları var idi. Xocavəndin Mədə bulağı, Baba bulağı min bir dərdin dərmanı idi.

Qədim sivilizasiyanın beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, daş qoç heykəllərə, ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə hər yerdə rast gəlinirdi. Xocavənd ərazisində 72 dünya və respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri var. Bu abidələr Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini özündə əks etdirir.

Erməni vandalizmi nəticəsində rayonun dağıntıya məruz qalmış mədəni və dini abidələrinə nümunə olaraq Tuğ kəndinin 5 kilometrliyindəki V əsrə aid alban kilsəsi, I-V əsrlərə aid alban qəbiristanlıqları, Salakətin kəndi ərazisindəki Dəmirov və Dağdağan ocaqları, Xocavənd kəndi ərazisində yerləşən Cicim ocağı, Qaradağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan alban qəbiristanlıqları, Yel piri, Əmirallar kəndi yaxınlığındakı Bəhrəmli piri, Muğanlı kəndində yerləşən Seyid Rza günbəzi və neçə-neçə qiymətli maddi-memarlıq abidələrini göstərmək olar.

Bu gün talelərinə məcburi köçkünlük həyatı yaşamaq qisməti düşən xocavəndlilər Azərbaycan dövlətinin böyük qayğı və diqqəti ilə əhatə olunublar. Lakin bizim xocavəndlilər üçün, bütün Azərbaycan üçün ədalətli müharibə hələ bitməyib. Hazırda işğal edilmiş torpaqlarımızı hər an azad etməyə qadir güclü ordumuz var. Ötən il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə, bu il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə, sentyabrın 15-də isə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar düşməndə böyük vahimə yaradıb. Aprel döyüşləri, Günnüt zəfəri Böyük Qələbəyə inamı daha da artırıb, ordumuzun gücünü, qüdrətini dünyaya nümayiş etdirib. Ona görə də xocavəndlilər inanırlar və əmindirlər ki, tezliklə dövlətimiz istər sülh, istərsə də müharibə yolu ilə doğma yurd yerlərimizi, şəhidlərimizin uğrunda vuruşduqları müqəddəs torpaqlarımızı düşmən işğalından azad edəcək. O zaman işğal tarixlərini deyil, qələbəmizin ildönümlərini Xocavənddə də qeyd edəcəyik.

**Rauf KƏNGƏRLİ**

## Ölkə birinciliyində daha bir uğur

Azərbaycan Milli Karate Federasiyasının təşkilatçılığı ilə karate-do üzrə “Bakı Open” beynəlxalq çempionatı keçirilib.



Bakı şəhərində təşkil olunan çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 2 idmançısı da mübarizə aparıb. 16-17 yaş qrupunda tatami üzərinə çıxan Aslan İsmayılov uğurla çıxış edib. O, 76 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb. Digər idmançımız Vüsal Seyidov isə hakimlərin qərəzli qərarları ilə üzləşib. Belə ki, 12-13 yaş qrupunda -40 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız 6 görüşdə qalib gəlsə də, mükafatçılar sırasına düşə bilməyib.

## Yarışda 60 şahmatçı mübarizə aparıb

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda şahmat üzrə Ordubad rayon birinciliyinə yekun vurulub.



Rayon Gənclər və İdman İdarəsi ilə Şahmat Federasiyasının təşkil etdiyi birincilikdə 60 şahmatçı mübarizə aparıb.

Birinciliyin yekununa əsasən oğlanlar arasında 8 yaş qrupunda Yusif Əliyev, 10 yaş qrupunda Rəcəb Abdullabəyli, 12 yaş qrupunda Uğur Həsənli, 14 yaş qrupunda Seyid Hüseyn qalib adını qazanıb. Qızların mübarizəsində isə 10 yaş qrupunda Zərifə Bədəlbəyli və 14 yaş qrupunda Zərrin Məmmədli birinci olublar.

Qaliblər muxtar respublika mərhələsində iştirak etmək hüququ qazanıblar.

## Güləşçimiz beynəlxalq turnirdə qələbə qazanıb

Şamaxı Olimpiya-İdman Kompleksində Əməkdar bədən tərbiyəsi və idman xadimi Oleq Krapivinin şərəfinə 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə VI açıq respublika turniri keçirilib.



Turnirdə Azərbaycandan, Rusiyadan, Ukraynadan, Gürcüstandan, İrandan, Qazaxıstandan və Qırğızıstandan, ümumilikdə, 300-ə yaxın güləşçi iştirak edib.

Beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançısı Dadaş Dadaşzadə də mübarizə aparıb. O, 75 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

## Tələbələr pedaqoji təcrübə keçirlər

“Naxçıvan” Universitetinin Pedaqoji və Xarici dillər fakültələrinin əyani şöbə üzrə təhsil alan tələbələri 2018-2019-cu tədris ilinin payız semestrində pedaqoji təcrübə keçməyə başlayıblar. Qeyd edək ki, ümumilikdə, 112 tələbə Heydər Əliyev adına tam orta məktəbdə, həmçinin 8 və 15 nömrəli tam orta məktəblərdə 7 həftəlik təcrübə keçəcək.

Bununla bağlı keçirilən konfransda çıxış edən universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu pedaqoji təcrübənin tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri tətbiq etmələri, pedaqoji mühitə uyğunlaşmaları, tədris prosesini dərindən mənimsəmələri baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Prorektor tələbələrə ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmlənməsinə, yüksəkixtisaslı kadr hazırlığına xidmət edəcək pedaqoji təcrübə zamanı məsuliyyət və nizam-intizamın vacib amil olmasından bəhs edib.

Konfransda Pedaqogika və psixologiya kafedrasının müdiri Nəzakət Yusifovanın, metodist Tural Paşayevin çıxışları dinlənilib.

**Nuray ƏSGƏROVA**

## Növbəti iməcilik “Gənclər bağı”nda olub

Naxçıvan şəhəri ətrafında salınmış “Gənclər bağı”nda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları və 40-a yaxın gəncin iştirakı ilə iməcilik və müsabiqə təşkil olunub.



“Gənclər paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı” layihəsinin “Təbiətsevər” nominasiyası üzrə keçirilən yarışmada ərazilər püşkatma yolu ilə bölünüb. Bundan sonra alaq otları təmizlənib, ağaclar suvarılıb və dibləri yumşaldılıb.

Sonda gənclər üçün çay süfrəsi təşkil edilib.

Qeyd edək ki, layihə çərçivəsində “Vətənpərvər” qısametrajlı film yarışması, “On/off” video və “Azərbaycan gəncliyinə doğan Günəş” mövzusunda məqalə yarışmaları bitdikdən sonra Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində mükafatlandırma mərasimi və konsert proqramı təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***I. Kafedra müdiri vəzifəsi üzrə***

*1.Pedaqogika və psixologiya*

*2.Humanitar fənlər və təsviri incəsənət*

Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən göstərilən vəzifələri tutmaq üçün peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə və ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik şəxslər müsabiqədə iştirak edə bilərlər.

***II. Kafedralardakı digər vəzifələr üzrə***

**1. Pedaqogika və psixologiya:**

- *Dosent – 1 yer (0,5 ştat);*
- *Baş müəllim – 1 yer (1 ştat);*
- *Müəllim – 1 yer (0,5 ştat).*

**2. Dillər və ədəbiyyat:**

- *Dosent – 1 yer (0,5 ştat).*

**3. Riyaziyyat və tədrisi metodikası:**

- *Müəllim – 1 yer (0,5 ştat).*

**4. Ali riyaziyyat və informatika:**

- *Dosent – 1 yer (0,5 ştat);*
- *Dosent – 1 yer (1 ştat);*
- *Baş müəllim – 1 yer (1 ştat).*

**5. Ümumi fənlər:**

- *Dosent – 1 yer (0,5 ştat).*

Sənədlər elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Mövcud əsasnaməyə görə müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***

### *İtmişdir*

Ordubad rayonu Anaqut kəndində yaşamış Bağırov Həmid Mədət oğlunun adına verilmiş JN-149A, JN-149B və JN-149C inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 714